# Bu günkü ictimai sabitliyin əsasını ulu öndərimiz yaratmışdır

(Əvvəli 4-cü səhifədə).

Məhz ulu öndərin nüfuzu, beynəlxalq əlaqələr yaratmaq sahəsində təcrübəsi bu işdə böyük rol oynadı.

Bu gün möhtərəm Prezidentimiz İlham Əliyev möhkəm təməl üzərində qurulmuş ölkə iqtisadiyyatını daha da inkişaf etdirmək üçün səmərəli iş aparır.

İndi Azərbaycan xaricdən qaz almır, əksinə qaz ixrac edir. Ölkəmiz Gürcüstan, Türkiyə və Yunanıstanı qazla təchiz edir. Hətta Azərbaycan qazı artıq Avropa bazarına çıxarılır. Enerji təhlükəsizliyinin dünya iqtisadiyyatında mühüm yer tutduğu indiki vaxtda Azərbaycan Avropa ölkələrinə sanballı kömək göstərir. Bu amil dünya ölkələri ilə geniş əməkdaşlığa şərait yaradır. Azərbaycanın sərvətləri, iqtisadi imkanları təkcə ölkəmizə deyil, həm də dolayısı ilə digər xalqlara da rahatlıq, firavanlıq gətirir.

Dekabrın 12-də ümummilli liderimmiz Heydər Əliyevin vəfatından on üç il ötür. Lakin onun qurub yaratdıqları yaşayır, xalqın rifahının yüksəldilməsinə xidmət edir. Ona görə də Heydər Əliyevin əziz xatirəsi xalqın yaddaşında əbədi yaşayacaqdır.

✍ **Aslan CƏLALOĞLU.**

# Qədim sənət nümunəsi–zərgərlik

***Azərbaycan dünyanın ən qədim və zəngin tarixə malik olan guşələrindən biridir. Azərbaycan xalqının zəngin yaradıcılıq çeşməsində ən mühüm yerlərdən birini zərgərlik məmulatları tutur. Arxeoloji qazıntılar zamanı tapılmış maddi-mədəniyyət nümunələri göstərir ki, hələ eramızdan əvvəl tuncdan zərif formalı kəmərlər və digər zinət əşyaları hazırlanmışdır.***

Zərgərlik dekorativ-tətbiqi sənətin ən qədim və geniş yayılmış növlərindən biridir. Azərbaycanda bu sənət min illər ərzində sadədən mürəkkəbə doğru böyük bir inkişaf yolu keçib ki, bu da xalqımızın b. e. əvvəlki dövrlərdə olan yüksək mədəniyyətindən xəbər verir.

VI-VII əsrlərdə yaşamış alban tarixçisi Moisey Kalankatlı əsərlərində Qafqaz Albaniyasının təbii zənginlikləri və faydalı qazıntıları haqqında məlumat verib: "Bu gözəl ölkədən axan Kür çayında xeyli miqdarda müxtəlif balıqlar var. Dağlarda qızıl, gümüş, mis və sarı boyaq istehsal olunur". Ən qədim zərgərlik nümunələri e. ə. III minilliyə aid edilən Qədim Misir qolbağları və asma bəzəklərdir. Azərbaycanda qazıntılar zamanı Mingəçevir, Yaloylutəpə, Qəbələ, Xınışlı, İsmayıllı, Qaratəpə və s. yerlərdən tapılan qiymətli bəzək əşyaları zərgərliyin hələ qədimdən Azərbaycanda geniş yayıldığını sübut edir. Arxeoloji qazıntılar zamanı Antik və orta əsr abidələrindən çoxsaylı rəngarəng çeşidli qızıl, gümüş sırğa, üzük, kəmər və s. qadın bəzəkləri tapılıb.

Muzeyimizdə nümayiş etdirilən eksponatlar içərisində zərgərlik məmulatları xüsusi yer tutur. Bu eksponatlardan gümüşdən hazırlanmış qadın kəməri, oymaq, boyunbağı, bilərzik, medalyon daha çox diqqəti cəlb edir. Muzeyə gələn turistlər və qonaqlar bu guşəyə heyranlıqla tamaşa edirlər.

✍ **Brilyant Məlikova, muzeyinin bələdçisi.**

# VIII-XII əsrlərin rəngarəng nümunələri

***Tarixin yaddaşına köçən, illər geçdikcə qədimləşən əvəzsiz nümunələr ekspozisiyamızı zənginləşdirməklə yanaşı xalqımızın keçmişini əks etdirir. Keçmişimizin canlı şahidləri olan bu nümunələr hər bir tamaşaçının diqqətini çəkir. Məhz bu nümunələr vasitəsilə qədim tarixə səyahət edərək ulu keçmişimizlə yaxından tanış oluruq.***

Qədim Qafqaz Albaniyasının tarixini yaşadan, təbliğ edən Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin ekspozisiyasında şüşə məmulatlarından ibarət geniş sərgi təşkil edilmişdir. Sərgidə müxtəlif formalı əlvan rəngli şüşə nümunələri nümayiş olunur. Onu da qeyd etmək lazımdır ki, qədim Qəbələdə şüşə emalına VIII əsrdən başlanılmışdır. Sərgidə müxtəlif formalı şüşə muncuqlar, ətir qabları, nimçələr, qrafinlər və s. əsas yer tutur. VIII-XII-əsrlərin nümunəsi olan müxtəlif rənglərlə boyanmış şüşələr bir daha sübut edir ki, qədim Qəbələdə bir çox elm sahələrinin sirlərinə bələd olan sənətkarlar az deyilmiş. Muzeyimizdəki sərgini xarici tamaşaçılar da seyr edir və bu cür rəngarəng tarixi nümunələrə heyran qaldıqlarını gizlətmirlər.

Zərif naxışlarla işlənmiş nümunələri, tariximizin bir hissəsi olan eksponatları görmək istəyənləri muzeyimizə dəvət edirik.

✍ **İlhamə SEYİDOVA, muzeyin kiçik elmi işçisi.**

# Yeni iqtisadi islahatlar Konsepsiyası–strateji yol xəritəsi

***Ötən əsrin sonlarında siyasi müstəqilliyini əldə edən Azərbaycan yeni iqtisadi münasibətlərə keçilməsində saysız-hesabsız çətinliklərlə rastlaşsa da ötən bu illərdə artıq dünyanın diqqətini cəlb edən uğurlar qazanıb. Son illərdə iqtisadi inkişafın Azərbaycan modeli qabaqcıl təcrübə kimi dünya ölkələrində yayılmaqdadır. Bu o deməkdir ki, ölkə Prezidenti İlham Əliyevin çevik iqtisadi islahatları bütün sahələr üzrə öz nəticəsini verir.***

Cənab İlham Əliyev hələ bu ilin əvvəlində 2016-cı ilin dərin islahatlar ili olacağını bəyan etmişdir. İlin son ayının ilk günlərində, yəni dekabrın 6-da imzaladığı «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında» fərmanı da həmin islahatların davamı kimi sonrakı illərdə ölkədə iqtisadi inkişafın əsas istiqamətlərinə yönəlmişdir. Fərmanda qeyd olunur ki, milli iqtisadiyyat və iqtisadiyyatın 11 əsas sektoru üzrə strateji yol xəritələri üç dövrü səciyyələndirəcək:

**2016-2020-ci illər ərzində inkişaf stategiyası və tədbirlər planı; 2025-ci ilədək olan dövr üçün uzunmüddətli strateji baxış; 2025-ci ildən sonrakı müddətdə hədəf baxışı.** Beləliklə, bu sənəd fundamental əsaslara malik olmaqla yanaşı, həm də 10 il sonrakı dövrdə genişmiqyaslı inkişaf prosesinin nüvəsini təşkil edəcək. Milli iqtisadiyyatın əlavə 11 əsas istiqaməti isə aşağıdakılardır: neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkitşafı; kənd təsərrüfatı məhsullarının istehsalı və emalı; kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı; ağır sənaye və maşınqayırmanın inkişafı; ixtisaslaşmış turizm sənayesinin inkişafı; loqistika və ticarətin inkişafı; uyğun qiymətə mənzil təminatının inkişafı; peşə təhsili və təlimin inkişafı; maliyyə xidmətinin inkişafı; telekommunikasiya və informasiya texnologiyalarının inkişafı; kommunal xidmətlərinin (elektrik və istilik enerjisi, su və qaz) inkişafı.

Keyfiyyətcə yeni mərhələyə qədəm qoyan inkişafın Azərbaycan modeli üzrə gələn il qeyri-neft sektorunun ümumi daxili məhsuldakı xüsusi çəkisinin 68 faiz, o cümlədən aqrar sektorun 4,9 faiz, turizmin 7,4 faiz, rabitə və informasiya sisteminin 6,7 faiz, nəqliyyatın 2,9 faiz artacağı nəzərdə tutulur.

Cənab Prezident İlham Əliyev artıq hökumət üzvləri qarşında konkret vəzifələr qoymuş, islahat kursunun hədəflərini də müəyyənləşdirmişdir. Ümumiyyətlə, qeyd edək ki, istehsal və xidmətlər sahəsində 6 əsas sektoru, 2 sosial və 3 infrastruktur sahəsini əhatə edən Strateji Yol Xəritəsi növbəti onillikdə ölkənin əsas iqtisadi strategiya sənədi olacaqdır.

Bu sənədin hazırlanmasında 400 nəfərə qədər xarici və yerli ekspert birbaşa iştirak edib, 4 min nəfərlə 150-dək görüş keçirilib, 1000-dən çox yazılı təklif verilib. Bu xəritələrin hazırlanmasında Nobel mükafaftçılarından başlamış Azərbaycanın sadə vətəndaşlarına qədər ən müxtəlif qrup insanlarla müzakirələr aparılıb. Hətta «On-line» qaydada təkliflər verilməsi üçün də imkanlar yaradılıb.

Daha bir məsələni xatırladaq ki, strateji yol xəritələrində nəzərdə tutulan vəzifələrin icrasına ümumi rəhbərliyin və nəzarətin həyata keçirilməsi Azərbaycan Respublikası Prezidentinin Adminstrasiyasına, monitorinq, qiymətləndirmə və kommunikasiya tədbirləri isə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə tapşırılmışdır.

✍ **N. ATAKİŞİYEV.**

# "Azər Türk Bank" yeddi gün müştərilərinin xidmətində

«Azər Türk Bank»ın müştəriləri şənbə və bazar günləri də bankın xidmətlərindən yararlana bilərlər. Belə ki, Qəbələ rayonunda yerləşən regional ASAN xidmət mərkəzində fəaliyyət göstərən Qəbələ şöbəsi həftənin yeddi günü həm fiziki, həm də hüquqi şəxslərə xidmət göstərir. Bank həftə içi hər gün saat 10:00-dan 20:00-dək, şənbə və bazar günləri isə saat 10:00-dan 17:00-dək (nahar fasiləsi olmadan) müştərilərin xidmətindədir.



Qeyd olunan xidmət mərkəzinə müraciət etməklə müştərilər fiziki və hüquqi şəxslərə bank hesablarının açılması, fiziki şəxslərə depozit hesablarının açılması, valyuta mübadilə əməliyyatlarının həyata keçirilməsi, nağdsız pul köçürmələri, ölkədaxili sürətli pul köçürmələri, şəxsi hesabdan nağd vəsaitin çıxarılması, hökumət ödəniş portalı üzrə əməliyyatların aparılması kimi xidmətlərdən yararlana bilərlər. Müştərilər həmçinin «Azər Türk Bank»ın müxtəlif növlü ödəniş kartlarını da bu xidmət mərkəzindən sifariş verə bilərlər.

ASAN xidmətin inzibati binasında fəaliyyət göstərən şöbə əməkdaşlarının iş rejimi ASAN xidmət mərkəzinin iş rejimi ilə uyğunlaşdırılıb.